# Novruz şənlikləri

## Qəbələ şəhər 3 saylı tam orta məktəbində Novruz şənliyi

Qəbələ şəhər 3 saylı tam orta məktəbində də Novruz şənliyi yadda qalan oldu.



Məktəbimizdə bahar abı-havası martın ilk günlərindən hiss olunurdu. Müəllimlər və şagirdlər bayram şənliyinə xüsusi şəkildə hazırlaşmışdılar. Məktəbin yaşıl meydançası müəllim və şagird kollektivinin səyilə yüksək zövqlə, bayramsayağı bəzədilmişdi. Milli paltarlı məktəblilər, bayram tonqalı, rəngarəng bayram xonçaları, baharın gəlişinin əsas atributu olan səmənilər göz oxşayırdı. Nəhayət, iştirakçıların səbirsizliklə gözlədiyi bayram şənliyini məktəbin direktoru Ədilə Əliyeva açıq elan etdi. O, bayram münasibətilə şagirdləri, müəllimləri, şənliyə gəlmiş valideynləri təbrik etdi. Yazın gəlişi münasibətilə hamıya həyatda müvəffəqiyyət, xoşbəxtlik arzuladı.

Milli musiqi sədaları ilə tonqal ətrafında bayram şənliyi başlandı. Bir-birindən şux rəqslər, mahnılar bayrama daha böyük coşqunluq gətirdi. Məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Ramin Nəbiyev, şagird təşkilatının rəhbəri Aygül Nəbiyeva və başqaları tədbirin yüksək səviyyədə keçməsində xüsusi fəallıq göstərdilər.

Tədbirdə Azərbaycanın milli rəqs və mahnıları ilə yanaşı digər dost xalqların musiqisinə də yer verildi.

Beləcə, məktəbimizin kollektivi—müəllimlər, şagirdlər daha bir baharı xoş əhval ruhiyyə ilə qarşıladılar.

**Elza KƏRİMOVA,**
**şəhər 3 saylı tam orta məktəbin müəllimi.**

## Tonqal ətrafında

Vəndam Sənətkarlıq evində böyük canlanma vardı. Hər tərəf şarlarla və novruza aid plakatlarla bəzədilmişdi. Şənliyi Sənətkarlıq evinin direktoru A. Azayev açaraq Novruz bayramı münasibəti ilə gələn qonaqlara xoş gəldin demiş, öz səmimi arzularını çatdırmışdır.

Şənliyi təravətləndirən musiqiçilərdən qarmonda Qismət Yunusov, gitarada Aqil Həmidov, sintizatorda Vüqar Süleymanov, nağarada Ramil Səbzəliyev və müğənnilər Nəcməddin və Hacıbabanın oxuduğu mahnılar qızların rəqsləri, tonqal ətrafında Kosa və Keçəlin maraqlı oyunları, bağça uşaqlarının və Elşən Salehovun maraqlı çıxışları gələn qonaqlara böyük zövq verdi.

Şənlik bayram musiqisi altında sona çatdı.

**«Qəbələ».**

## Uşaqların sevinci

Novruz qədim dövrlərdən bizə yadigar qalan bayramdır. Novruz torpağa, insana məhəbbət bayra-



mıdır. Bu bayramı həm də xalqımızın söz-saz, nəğmə bayramı da adlandırırlar.

Şəhər 3 saylı körpələr evi uşaq bağçasında Novruz bayramı münasibətilə şənlik keçirilmişdir. Tədbiri giriş sözü ilə bağçanın müdiri Natavan Əfəndiyeva açdı. Birlik, qardaşlıq, bolluq, bərəkət və firavanlıq bayramı olan Novruzun gəlişinin məhz gecə ilə gündüzün bərabərləşdiyi bir məqama düşdüyünü xatırladan natiq Şərq təqvimi ilə yeni ilin yaz fəslində qədəm qoyduğunu bildirdi və iştirakçıları Novruz bayramı münasibətilə təbrik etdi.

Valideynlərdən Mehparə Əzizova, Lalə Mirzəliyeva və başqaları bağçada uşaqların istirahəti, təlim və tərbiyəsi üçün yaradılan gözəl şəraitə, bütün bayramların yüksək səviyyədə qeyd olunmasına görə bağça rəhbərliyinə öz minnətdarlıqlarını bildirdilər. Tərbiyəçiləri, kollektivin digər üzvlərini, uşaqları Novruz bayramı münasibətilə təbrik etdilər.

Bu bayramı uşaqlar daha çox sevirlər. Uşaqlar bayramı Novruz xonçaları və şirniyyatlarla, səmənilərlə, şirələrlə bəzədilmiş stol arxasında qeyd edirdilər. Uşaqların ifalarında Kosa, Keçəl, Bahar qızın gəlişi, Cırtdan, Çoban, Qırmızı Papaq və Qoğalın çıxışları bayram tədbirini şənləndirdi.

**Sevinc ƏFƏNDİYEVA,**
**bağçanın tibb bacısı.**

## Sağlamlıq imkanları məhdud uşaqların bayram tədbiri

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi Zarağan kənd 2 saylı məktəbdə sağlamlıq imkanları məhdud uşaqlar üçün Novruz şənliyi keçirmişdir. Şənlikdə sağlamlıq imkanları məhdud uşaqlar, valideyinlər və məktəblilər iştirak etmişdir.

Şənliyi giriş sözü ilə mərkəzin direktoru Rəna Mahmudova açmış, bayram münasibətilə iştirakçıları ürəkdən təbrik etmiş, onlara arzularını bildirmişduir. Şənlikdə iştirakçıların sağlamlıq imkanları məhdud uşaqlar və məktəblilərin iştirakı ilə geniş proqram təqdim edilmişdir. Tədbirdə sağlamlıq imkanları məhdud uşaqlarla birlikdə məktəbin şagirdləri də iştirak etmiş, uşaqların cəmiyyətə inteqrasiyasına yardımçı olmuş, onlarla birlikdə şənlənmişlər.

Tədbirdən sonra sağlamlıq imkanları məhdud uşaqlara bayram sovqatı təqdim edilmişdir.

**Günay KƏRİMOVA,**
**Qəbələ UADM-in metodsti.**



## Bahar töhfələri, bahar gözəlləmələri

***Novruz bayramının, bahar bayramının tarixi olduqca qədimdir. Tarixçilərin qeyd etdiyinə görə bu bayramın tarixi hətta, eramızdan 505 il əvvəllərə gedib çıxır. Bəzi bayramlardan fərqli olaraq bu bayram bir çox xalqların taleyində təmənnasız formalaşmış, zaman keçdikcə insanların təbiətlə ünsiyyəti yeni məzmun kəsb etmişdir. Bu məzmun xalqların düşüncə tərzində, müfoloji təfəkküründə, folkulorunda özünə məxsus yer tutmuş, hər il təkrar olaraq təbiətin oyanışı, təzələnməsi yeni novruz ayinlərini yaratmış və nəsildin-nəslə ötürülmüş, həyatımızda bu günkü formasına gəlib çıxmışdır.***

***Hazırda bu bayramın bir çox xalqlar tərəfindən qeyd olunması bir gövdədən ibarət olan ağacın şaxələnməsinə bənzəyir. Müxtəlif xalqların Novruz ayinlərinin bir-birinə oxşaması, eyniliklər də bunu təsdiq edir. Yazın və onun istisinin gəlişinə azərbaycanlılar Xızır (Xizır İlyas), Kosa-kosa törəni keçirirlər. Baharın gəlişi, Novruz bayramı ilə bağlı, aşağıda əsirlər boyu yaranan yüzlərlə bahar töhfələrindən, bahar gözəlləmələrindən bir neçəsini dərc edirik.***

### Gəlib yaz ayları

Bağ-bağatın yaxasını bir ılıq nəfəs titrədib keçdi. Budaqların düyməsi başladı bircə-bircə açılmağa. Meşələrin saçında-birçəyində yazın darağı gəzdi—baxıb gördülər bir yamyaşıl əldi, yamyaşıl istəkdi, arzu-diləkdi. Yüz ilin qara daşları yaz nəfəsi alıbanı başladı göyərməyə. Novruz xəbəri aynaları döyəcələdi, qapıları silkələdi, bacalara qondu, insanların bəxtinə talehinə bir göz qırpımında qaynayıb qarışdı. Torpaq yazın addım səslərindən diksinib oyandı, dağ çayları qulac hördüyələrini açıb çiyin aşağı axıtdı, çölləri-düzləri ətiri-ənbər bürüdü. Kolların dibindən bənövşələr boynunu büküb həsrətli-həsrətli boylandılar. Kənd cavanları bənövşəni üzdü-dəstələdi, istəklisinə yazın özünücə pay apardı.

**(Ardı 8-ci səhifədə).**